# Səhnəmizin hökmlü xanımı -



Kleopatra rolunda
( V.Şekspir - «Antoni və Kleopatra»)

# Hökümə Qurbanova

Xasiyyətdə eynən anasına çəkmişdi. Tərs və inadkar idi. Xarakterindəki bu ziddiyyət həyatda ona çox mane olacaqdı...

Hökümə xanımın atası Abbasəli kişi Bakının tanınmış tacirlərindən idi. Müslüm Maqomayevlə səmimi münasibəti vardı. Bu dostluq gələcəkdə qohumluğa çevriləcəkdi.

1910-cu ildə Şimali Qafqazda olarkən Abbasəli dostuna baş çəkmək üçün Qroznıya gəlir. Bəstəkarın bacısı Məlahət xanımı da ilk dəfə burada görür və ...

Və ona ürəkdən elə vurulur ki, tezliklə yaxın adamları bu qapıya elçi düşəsi olur. Gələcək qayınata qonaqlara "hə" desə də öz şərtlərini irəli sürməkdən qalmır: "Oğlan özünə ev almalıdır, onun qızı heç vaxt çarşabda olmayacaq..."

Əvvəllər iki dəfə evli olan və sonsuzluğa görə ailəsini dağıdan Abbasəlinin etiraz etməyə gücü çatmır. Beləliklə, Məlahət xanım onun evləndiyi üçüncü qadın olur. İki il keçir. Ancaq yenə də ailədə varis yoxdur - ev körpə səsinə möhtacdır. Bu həsrətə son qoymaq arzusu ilə Abbasəli Qurbanov və onun cavan arvadı Bibiheybət pirini ziyarət etməyi qərara alırlar. Məlahət xanım burada müqəddəs daş önündə diz çöküb Allaha yalvarır: "İlahi, bizi bu intizardan qurtar. Heç olmasa bir qız ver..."

***İndi bu istəklə Abbasəli də razılaşırdı. Təki bir övladı olsun. Evliliklərinin ilk vaxtları isə elə hey "oğul" deyirdi.***

***Ziyarət ailə üçün düşərli oldu. Tezliklə bir qız uşağı dünyaya göz açdı. Allahın hökmü ilə tapılan körpəyə Hökümə adı verdilər. Çox keçmədi ki, ailədə uşaqların sayı artdı: Qəmər, Ağası.***

***Amma nə yazıqlar ki, bu zəngin və mehriban ailənin xoşbəxtliyi çox davam etməyəcəkdi, Məlahət xanım üç uşaqla dul qalacaq, sonda Bakıya köçən qardaşı Müslümə qoşulacaqdı.***

Onlar burada Nizami küçəsi 41 saylı ünvanda yaşayacaqdılar. İndi o illərin xatirəsi kimi asılmış mərmər lövhə ötənlərdən xəbər verir: "Burada Müslüm Maqomayev yaşayıb-yaratmışdır".

Təbii ki, Müslüm Maqomayev kimi bir sənətkarın qapısını döyən, qonağı olan çox idi. Bu mədəniyyət xadimlərinin maraqlı yaradıcılıq əlaqələri, işıqlı söhbətləri Hökümə üçün də təsirsiz ötüşmürdü. Onun sənətə meylliliyi məhz burdan qaynaqlanırdı.

Hökümə əvvəlcə pedaqoji texnikumu bitirəcəkdi. Sonra dayısının təkidi ilə anası onu konservatoriyaya aparacaqdı. O burada fortepiano sinfində oxuyacaqdı. Fəqət Hökümə Qurbanova musiqi müəllimi deyil, teatr xadimi - aktrisa olacaqdı.

Bu da taleyin bir gərdişi idi. Səbəbkar qonşuluqda yaşayan gənc aktyor Ələsgər Ələkbərov olacaqdı.

Ələsgər Ələkbərovun elçilərini Məlahət xanım etirazla qarşıladı: "Mən qızımı heç vaxt artistə verməyəm. Oğlanın başqa peşəsi də yoxdur, bəs ailəsini necə saxlayacaq?!.."

Beləcə, qonaqlar çay içmədən evi pəjmürdə halda tərk edəcəkdilər. Axşam...

Axşam isə Hökümə xarakterinə uyğun olaraq çəkinib eləmədən anasının üzünə deyəcəkdi: "Ana, səni yaxşı anlayıram. Bizə həm ata, həm də ana olubsan. Yolumuzda nə qədər əzablara dözübsən. Amma mən Ələsgərin gələcəyinə inanıram, istedadlı və zəhmətkeşdir. O elə indi də pis qazanmır. Bir də axı biz bir-birimizi sevirik..."

Bu söhbətdən bir az keçmiş Ələkbərovlar ailəsi yenidən Məlahət xanıma müraciət etdilər. Bu dəfə "hə" cavabı da oldu, şirin çay da, xeyir-dua da. Yaddaqalan toy oldu. Bir ildən sonra cütlüyün Nailə adlı qızları dünyaya göz açdı.

1932-ci ildə Bakı Türk İşçi Teatrı Gəncəyə köçdü. Təbii ki, Hökumə xanım da əri ilə bərabər bu qədim şəhərə yola düşdü. Teatrda gənc qadın Ələsgərdən bir an belə aralanmadı, ona qrimlənməkdə, kostyumunu dəyişməkdə, mətni əzbərləməkdə kömək etdi.

Onlar görkəmli teatr rejissoru və aktyoru Abbas Mirzə Şərifzadə ilə mənzil qonşuları idi. Teatrda təmir getdiyindən aktyorlar məşqi Abbas Mirzənin mənzilində aparırdılar. Onlar H.Cavidin "Şeyx Sənan" pyesini səhnəyə hazırlayırdılar. Xumar rolunun ifaçısı obraza girə bilmədiyindən vaxt uzanırdı. Hökümə xanım bütün bunları diqqətlə izləyir, marağını gizlədə bilmirdi.

Sonralar o günləri Hökümə Qurbanova belə xatırlayacaqdı: "Bir gün hiss etdim ki, Xumar rolunu tamam əzbərləmişəm. Aktrisa olmaq arzum da məhz bu zaman baş qaldırdı".

O zaman Ələsgər Ələkbərov gənc aktyorlar arasında istedadına görə seçilir, baş rollar məhz ona verilirdi. Məhəbbət qəhrəmanı tək ad çıxarmışdı. Bir aşiq kimi qısqanır, sevgisi uğrunda şücaət göstərirdi. Hər dəfə tamaşadan sonra ətrafını pərəstişkarları heyrətlə bürüyürdü. Təbii ki, bütün bunlar təsirsiz ötüşmürdü. Ailədə söz-söhbət baş alıb gedirdi. Sonra bu dava-dalaş ailənin dağılması ilə başa çatdı.

Sənətkarlar arasında boşananlar az deyildi. Onlar sonra da dost kimi qalır, eyni tamaşada rol aparır, tərəf-müqabili olurdular. Ancaq bunu Ələsgər Ələkbərov və Hökümə Qurbanova haqqında söyləmək qeyri-mümkündür. Odur ki, teatrda məşqlər elə bölünürdü ki, onlar üz-üzə gəlməsinlər. Buna baxmayaraq bəzən onlar gözlənilmədən teatrda qarşılaşırdılar. Bu zaman Ələsgər özündən çıxır, Hökümə xanımı təhqir etməkdən qalmırdı. Hökümə xanımın belə anlar özünü biganə aparması Ələkbərovu daha da qəzəbləndirirdi.

Ələsgər Ələkbərovu özündən çıxaran o idi ki,



aktyor hələ də Hökümə xanımı unuda bilmirdi. Amma inadkarlıqları onları yenidən birləşməyə qoymurdu. Nəhayət, belə bir məqam yarandı. Nəvələri Nazimin dünyaya gəlişi ilə iki məşhur və tərs sənətkar barışdı, hətta "Vaqif" tamaşasında tərəf-müqabili olmağı da qərara aldılar.



— O qayğısız günlər arxada qalıb, indi nə Hökümə xanım var, nə də qızı Vəfa Fətullayeva...

Amma Ələsgər Ələkbərovun qəflətən ölümü ilə tamaşaçılar bu böyük sənətkarı bir daha səhnədə qoşa görə bilmədilər...

Sonralar Hökümə xanım teatr rəssamı Nüsrət Fətullayevə ərə gedəcək, onlar 20 il birgə həyat sürəcək, onların Vəfa adlı bir qızları olacaqdı. Öz gözəl rolları ilə əbədi yaddaşımıza köçən və bizləri çox erkən tərk edən Vəfa Fətullyaeva! Bu ağır itkiyə dözməyəcək, bir il sonra Hökümə xanım da həyatla vidalaşacaqdı...

***Qurbanova Hökümə Abbasəli qızı 1913-cü ildə Bakıda anadan olub. Bakı Pedaqoji Texnikumunu bitirib, Azərbaycan Dövlət Konservatoriyasında fortepiano sinfi üzrə oxuyub.***

***Aktyorluq fəaliyyətinə 1933-cü ildə "Azərbaycanfilm" kinostudiyasında başlayıb, C.Cabbarlının təşəbbüsü ilə "Almas" (1936) filmində Yaxşı rolunda çəkilib. 1939-cu ildən Azərbaycan Dövlət Dram Teatrında çıxış edib. Tamara ("Vaqif", S.Vurğun) onun teatr səhnəsində ilk roludur.***

***Yaradıcılığının ilk illərində Gülbahar ("Müsibəti-Fəxrəddin", N.B.Vəzirov), Şirin ("Fərhad və Şirin", S.Vurğun), Afaq ("Nizami", M.Hüseyn), Vəfa ("Vəfa", R.Rza), İnci ("Xoşbəxtlər", S.Rəhman) rollarını ifa edib.***

***Onun yaratdığı Sona ("1905-ci ildə", C.Cabbarlı), Xuraman ("Vaqif", S.Vurğun), Germiona ("Qış nağılı", V.Şekspir), Xumar ("Şeyx Sənan", H.Cavid), Süsən ("Namus", A.Şirvanzadə), Vasantasena ("Hind gözəli", Y.Osnos və V.Vininkov) obrazlarında lirizm, romantik vüsət güclüdür.***

***H.Qurbanovanın yaradıcılığının əsas mövzusunu qəhrəman, mübariz xarakterli, yüksək bəşəri ideallarla aşılanmış güclü insan obrazı təşkil edir: Solmaz ("Od gəlini", C.Cabbarlı), Həyat ("Həyat", M.İbrahimov), Həcər ("Qaçaq Nəbi", S.Rüstəm), Məryəm ("Fərhad və Şirin", S.Vurğun), Südabə ("Səyavuş", H.Cavid), Reyhan ("Cavanşir", M.Hüseyn), Məhmənəbanu ("Məhəbbət əfsanəsi", N.Hikmət) və b.***

***O, cəsarətli və fədakar Janna d Arkın ("Orlean qızı", F.Şiller), amansız kraliça və qadınlıq hisslərinin əsiri Mariya Tüdorun ("Mariya Tüdor", V.Hüqo), V.Şekspir dramaturgiyasında ən mürəkkəb qadın obrazlarından olan Kleopatranın ("Antoni və Kleopatra) daxili aləmini ustalıqla açıb.***

***H.Qurbanovanın digər rolları da uğurlu alınıb: Bənövşə ("Kəndçi qızı", M.İbrahimov), Sevinc ("Sənsiz", Ş.Qurbanov), Xanuma ("Xanuma", A.Saqareli) və b.***

***Güclü və məlahətli səsə, aydın diksiyaya malik H.Qurbanovanın oyunu bədii cəhətdən inandırıcı olub, emosionallığı, hisslərin dərinliyi, zəngin ifadə vasitələri, plastikası ilə səciyyələnir.***

***O, "Bir ailə" (1943), "Onu bağışlamaq olarmı?" (1960), "Mən rəqs edəcəyəm" (1963), "İnsan məskən salır" (1968) və s. filmlərdə çəkilib. 7-9-cu çağırışlarda Ali Sovetin deputatı olub, neçə-neçə orden və medallara layiq görülüb.***

**Y. HİDAYƏTOĞLU**